# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 424** **Bakı şəhəri, 29 noyabr 2022-ci il**

***Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun Əsasnaməsinin və sanitariya-mühafizə zonasının təsdiq edilməsi barədə***

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən və "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 oktyabr tarixli 2971 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoru-ğunun Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoru-ğunun sanitariya-mühafizə zonası əlavə olunmuş xəritədə göstərilən 317,26 hektarlıq sahədə təsdiq edilsin.

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti.- 2022.- 1 dekabr.- S.2.